Bülleten No: 08 / avqust 2013

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi
Məlumat Hesablama Mərkəzi

Elektron Hökumət Portalı
your gateway to all public services

www.e-gov.az

AVQUST 2013

# Elektron Hökumət Bülleteni

## Ramazan Bayramınız Mübarək!

## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



ISO 9001 SGS SYSTEM CERTIFICATION
UKAS ENVIRONMENTAL MANAGEMENT 005



## Nazir: "Elektron xidmətlərin geniş tətbiqi şikayətlərinin azalmasına səbəb olub"

"Müşahidələr göstərir ki, son zamanlar vətəndaşların şikayətləri azalıb. Ölkədə korrupsiyaya qarşı aparılan mübarizə, əhaliyə verilən xidmətlərin yaxşılaşdırılması istiqamətində atılan addımların nəticələrini əyani olaraq görürük". Bu fikirləri rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov "Facebook" sosial şəbəkəsində paylaşıb. Nazir qeyd edib ki, vətəndaşların şikayətlərinin azalmasına həm də elektron xidmətlərin geniş tətbiqi səbəb olub:

"Bu gün artıq elektron xidmətlərin göstərilməsi vətəndaşların işlərini xeyli asanlaşdırıb. Son 6 ayda "Elektron hökumət" portalına 260 mindən çox müraciət edilib. Vətəndaşlar da həmin elektron xidmətlərdən lazımi səviyyədə yararlanıblar. Bütün bu işlərin nəticəsi nəinki paytaxtda, eləcə də bütün bölgələrdə hiss olunur. Hökumətin biznes istiqamətində apardığı işlər kiçik və orta bizneslə məşğul olan insanları stimullaşdırıb ki, bu da ümumilikdə Azərbaycanda sosial-iqtisadi durumun inkişafına çox müsbət təsir edir".

www.e-gov.az

## Yeni qanun layihələri hazırlanıb



Rabitə və İnformasiya Texnologi¬yaları Nazirliyində (RİTN) "İnformasiya cəmiyyətinin inkişafı üzrə Milli Strategiya"nın layihəsi ilə yanaşı, iki qanun layihəsi də hazırlanıb. Bunlar "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi" və "Dövlət informasiya sistemləri və informasiya ehtiyatları haqqında" qanun layihələridir. Yaxın günlərdə qanun layihələri e-gov.az portalının müvafiq bölməsində (https://projects.e-gov.az/AllServices.aspx) yerləşdiriləcəkdir. Qeyd edək ki, burada Azərbaycan Respublikasının Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının hazırladıqları normativ-hüquqi aktların layihələri ilə də tanış olmaq olar. Hər bir vətəndaş yuxarıda göstərilən ünvana daxil olaraq informasiya sahibinin və layihənin adını seçib, layihələrin mətni ilə tanış ola, həmçinin müzakirənin bitmə müddəti ərzində öz təkliflərini göndərə bilər. Eyni zamanda RİTN mütəxəssisləri tərəfindən "Azərbaycan Respublikasında ölkə kodlu yüksəksəviyyəli domen adlarının qeydiyyatı və istifadəsi Qaydaları"nın layihəsi də hazırlanıb. Qaydalarda domen adlarının onlayn əldə edilməsi sisteminin tətbiqi nəzərdə tutulub.

Domen adlarının onlayn qeydiyyatı sisteminin sentyabr ayında "az." domeninin 20 illiyi ərəfəsində istifadəyə verilməsi planlaşdırılır.

Qeyd edək ki, sözügedən tədbirlər "Azərbaycan Respublikasında 2013-cü ilin "İnformasiya kommunikasiya texnologiyaları ili" elan edilməsi ilə bağlı RİTN üzrə təsdiq olunmuş Tədbirlər Planı"na əsasən normativ hüquqi baza və idarəetmənin təkmilləşdirilməsi bölməsi üzrə müvafiq bəndlərin icrası məqsədi ilə hazırlanıb.

## Bölgələrdə e-xidmətlərdən istifadə ilə bağlı maarifləndirici təlimlər təşkil olunub

Almaniyanın İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi Azəbaycan hökuməti ilə birgə ikitərəfli əməkdaşlıq çərçivəsində yerli özünü idarəetmə dəstək proqramını həyata keçirir. Bu proqramın icrası ilə Almaniyanın Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (Deutsche Gesellschaft für İnternationale Zusammenarbeit GmbH) məşqul olur. Pilot layihənin əsasında Quba və Xaçmaz rayonlarının bələdiyyələrə "Elektron Hökumət həlləri – elektron xidmətlərə çıxış" təlimin keçirilməsi planlaşdırılmışdi. "İKT ili" çərçəvəsində Qubanın şəhər bələdiyyəsində Quba və Xaçmazın 10 bələdiyyəsinin nümayəndələri üçün Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzinin mütəxəssisləri tərəfindən qeyd edilən mövzuda maarifləndirici təlim təşkil edilmişdir.

Dinləyicilərə prezentasiyalar nümayiş olunmuş, Elektron Hökumət portalında xidmətlərin istifadəsi və sənədlərin elektron imza kartı ilə imzalanması prosesləri praktiki təlimdə göstərmişlər.



# Əli Abbasov: Azərbaycanda innovasiya müəssisələrinə böyük ehtiyac var

Azərbaycanda innovasiya müəssisələrinin inkişafı üçün əsas məsələ "start up"lara sərmayə yatırımının mövcud olmasıdır. Bu barədə jurnalistlərə açıqlamasında rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov bildirib. Nazirin fikrincə, yeni başlayan sahibkarlar üçün digər problemlər bazara daxil olmaqla bağlı ola bilər ki, bu da bazarda mövcud olan sərt rəqabətlə bağlıdır:

“"Start up" şirkətlərin inkişafı üçün İKT İnkişafı Fondu və texnoparklar da daxil olmaqla müxtəlif fondlar mövcuddur ki, onların çərçivəsində yeni başlayan şirkətlər üçün vergi və gömrük güzəştləri nəzərdə tutulub. Biz bizneslə məşğul olmağı arzu edən gənc sahibkarların innovasiya xarakterli layihələri həyata keçirmək imkanlarına malik olmalarına çalışırıq".
Nazirin sözlərinə görə, innovasiya müəssisələrinin inkişafı növbəti 8-9 il ərzində Azərbaycan iqtisadiyyatının inkişafının əsas istiqamətidir.
Onun fikrincə, yeni şirkətlərin inkişafı üçün "start up"ların inkişafına böyük ehtiyac var:
"Azərbaycanda intellektual potensiala malik olan xeyli sayda gənc var. Onlar öz bizneslərini yaratmaq üçün yollar axtarırlar. Bu sahənin inkişafı üçün onlara müvafiq şərait yaratmaq və lazımi dəstəyi göstərmək lazımdır".

# "Elektron hökumət həlləri – elektron xidmətlərə çıxış" mövzusunda maarifləndirici təlim keçirilib

Məlumat Hesablama Mərkəzi Beynəlmiləlçi Əlil Döyüşçülər Fondu ilə birlikdə "İnformasiya-kommunikasiya texnologiyaları ili" çərçivəsində qeyri-hökumət təşkilatları üçün "Elektron hökumət həlləri – elektron xidmətlərə çıxış" mövzusunda maarifləndirici təlim keçirib.

Tədbirdə 15 qeyri-hökumət təşkilatının təmsilçiləri iştirak edib. MHM-nin mütəxəssisləri tərəfindən prezentasiyalar təqdim edilmiş və "Elektron hökumət" portalında qeydiyyat, xidmətlərin istifadəsi və sənədin elektron imza kartı ilə imzalanması iştirakçılara praktiki təlimdə göstərilmişdir.

Təlimin sonunda Sertifikat Xidmətləri Mərkəzi tərəfindən iştirakçılara pulsuz elektron imza kartları və kart oxuyucuları təqdim edilmişdir.

Təlimdə mütəxəssislər tərəfindən təqdimatlar edilib, eyni zamanda "Elektron hökumət" portalında qeydiyyat, xidmətlərin istifadəsi və sənədin elektron imza kartı ilə imzalanması iştirakçılara praktiki şəkildə göstərilib.

Təlimin sonunda iştirakçılara pulsuz elektron imza kartları və kart oxuyucuları təqdim edilib.

# "Hesab.az" portalının istifadəçilərinə elektron imzadan yararlanma imkanı yaradılıb

"Goldenpay" şirkəti RİTN MHM ilə əməkdaşlığı çərçivəsində, "hesab.az" portalında elektron imzadan istifadə etməklə elektron xidmətlərin istifadəsindən yararlanmaq imkanı yaradıb.

Yeniliyin istifadəçilər üçün özəlliyi e-imzanın portalda olan "şəxsi kabinet"inə inteqrasiyasıdır ki, bu da portalda olan və tezliklə yaradılacaq elektron xidmətlərdən asanlıqla yararlanmağa şərait yaradır. Yaxın vaxtda "Goldenpay" şirkəti elektron imza istifadəçilərinə yeni elektron xidmətlər təqdim etməyi planlaşdırır. Bunların arasında kreditlərin banka getmədən sifarişi, bank hesabının "online" olaraq məsafədən açdırılması, elektron cüzdanın istifadəsi, elektron sığorta xidmətindən yararlanması və s. xidmətlər təşkil etməyi nəzərdə tutulub. Goldenpay" şirkətinin təsisçisi Fərid İsmayılzadənin sözlərinə görə, əhali arasında elektron imza istifadəçilərinin sayının artması məqsədi ilə şirkət tərəfindən yeni üstünlüklər və göstəriləcək elektron xidmətlərin sayının artırılması gözlənilir ki, bu da elektron imzanın istifadə ediləcək sahələrin daha da artmasına təkan verəcək.

“Hesab.az" portalı vasitəsilə göstəriləcək e-xidmətlərin sayı daha da artacaq. Elektron imzanın tətbiqi isə əhaliyə nəzərdə tutulmuş daha yeni və sadələşdirilmiş elektron xidmətlərin meydana gəlməsinə müsbət təsir edəcək", - İsmayılzadə demişdir. "Hesab.az" portalında tətbiq edilmiş daha bir yenilik, elektron imzanın əldə edilməsi üçün elektron müraciət xidmətidir.

Goldenpay" şirkəti ilə əməkdaşlıq olduqca böyük önəm kəsb edir və bu əməkdaşlıq e-imza istifadəçilərinin sayının daha da sürətli artmasına təkan verəcək.

"Olduqca vacibdir ki, istifadəçilər təkcə "Elektron hökumət" portalı vasitəsilə deyil, eləcə də digər veb-saytlar vasitəsilə də elektron xidmətlər əldə etsinlər.

Sevindirici haldır ki, bu imkan "hesab.az" kimi birinci sıralarda yer alan elektron xidmət portalında yaradılıb. Elektron imza istifadəçilərinin sayının daha da artırılması məqsədi ilə "hesab.az" portalı ilə birlikdə müştərək aksiyaların keçirilməsini də nəzərdə tutulmuşdur.

Bu günədək MHM tərəfindən verilmiş elektron imza sertifikatlarının sayı 15 minə çatmışdır. Onların böyük əksəriyyəti Dövlət qurumlarında çalışanların payına düşür.

Elektron imza əsas sənədin xüsusi proqram təminatı vasitəsilə sabit uzunluğu olan simvolların müəyyən ardıcıllığını özündə ehtiva edir. Göndərilmə zamanı əsas sənədə rəqəmli imza əlavə olunur ki, bunun da nəticəsində müəlliflik və sənəddəki məlumatın dəyişməzliyi öz təsdiqini tapır. Əsas sənədə istənilən dəyişiklik etməklə elektron imza öz qüvvəsini itirir.

Rəqəmli imzanın əldə olunması təşkilatın internet şəbəkəsi vasitəsilə mübadilə etdiyi sənədin müəllifliyi və məzmunu ilə bağlı əmin olmağa imkan verir. Elektron imzanı saxtalaşdırmaq mümkün deyil. Rəqəmli imza ilə imzalanmış sənəd əllə imzalanmış sənədlə bərabər tutulur.

Qeyd edək ki, "Goldenpay" ödəmə texnologiyaları əsasında çalışan "hesab.az", mobil operatorlar, internet-provayderlər, bütün kabel televiziya şəbəkələri və kommunal şirkətlərinin hesablarını bank kartları vasitəsilə ödəmək imkanı verir. Bundan başqa, portalda bank kreditlərinin ödənişi və onlayn-sığorta xidmətləri göstərilir. Bu zaman qeydiyyatdan keçən 66 minə yaxın abunəçi «Şəxsi kabinet» açmaq, ödəniş tarixçələrini aparmaq və bonus qazanaraq müxtəlif hədiyyələr üzrə hərraclarda iştirak edə bilərlər.

## Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Elektron-hökumət portalı vasitəsilə yeni xidmətini istifadəçilərinə təqdim edir.



Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Elektron-hökumət portalı vasitəsilə yeni xidmətini istifadəçilərinə təqdim edir. "Nigah qeydiyyatı üçün elektron müraciət" adlanan bu yeni xidmət vasitəsilə ailə qurmaq istəyən şəxslər indi nigaha daxil olmaq üçün ərizəni əlavə vaxt sərf etmədən, onlayn qaydada qeydiyyatdan keçərək verə bilərlər. Nigah qeydiyyatı üçün ərizəni, hər iki tərəf özlərinə aid olan məlumatları (adı, soyadı, ata adı, yaşayış yeri, təhsili, milliyəti, vətəndaşlığı, iş yeri və vəzifəsi və s) daxil edərək onlayn şəkildə, rahat, qısa vaxt ərzində, əlavə vaxt sərf etmədən və olduqları yerləri tərk etmədən verə bilərlər. Uğurla qeydiyyatdan keçən şəxslərin nigahı 1 (bir) aydan sonra ərizəçilərin seçdiyi saatda bağlanılacaq.

Qeyd edək ki, interaktiv növlü elektron xidmət istifadəçilər üçün daim açıqdır və müraciət edilməsi hər hansı qaydada məhdudlaşdırıla bilməz.

Xidmətdən istifadə üçün: www.e-gov.az saytına daxil olun və Ədliyyə Nazirliyinin müvafiq xidmətini seçin.




www.e-gov.az

## Azərbaycanda “elektron hökumət”in inkişafı və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı ictimai müzakirə keçirilib



Cari ilin iyunun 12-də Azərbaycan Respublikası Prezidentinin "Elektron hökumət" portalı haqqında Əsasnamə"nin təsdiq edilməsi və elektron xidmətlərin genişləndirilməsi ilə bağlı tədbirlər barədə" 2013-cü il 5 fevral tarixli Fərmanına uyğun olaraq Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən hazırlanmış "2013-2015-ci illərdə dövlət orqanlarında elektron xidmətlərin genişləndirilməsi və "Elektron hökumət"in inkişafına dair Dövlət Proqramı" layihəsinin ictimai müzakirəsi keçirilib. Tədbirdə dövlət və hökumət rəsmiləri, İKT sahəsində aparıcı ictimai təşkilatların və digər qurumların nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov, rabitə və informasiya texnologiyaları nazirinin müavini Elmir Vəlizadə və Azərbaycan Respublikası Prezidenti Administrasiyasının sektor müdiri Ülvi Mehdiyev ölkədə "elektron hökumət"in formalaşdırılması və elektron xidmətlərin təşkili istiqamətində əldə olunmuş nailiyyətləri qeyd edərək, bu sahədə qarşıya qoyulmuş prioritetlərə çatmaq üçün hazırlanan yeni Dövlət Proqramının məqsəd və hədəfləri barədə məlumat veriblər.

Daha sonra nazirliyin və Dövlət Agentliyinin məsul əməkdaşları Dövlət Proqramı layihəsinə dair təqdimatla çıxış edərək, proqramdan irəli gələn vəzifələri, əsas fəaliyyət istiqamətlərini və onların həyata keçirilməsindən gözlənilən nəticələri tədbir iştirakçılarının diqqətinə çatdırıblar. Tədbirdə Dövlət Agentliyi yanında Elektron Xidmətlərin təşviqi üzrə İctimai Şuranın koordinatoru Osman Gündüz Dövlət Proqramına ictimai baxış mövzusunda çıxış edib.

Sonda Dövlət Proqramı tədbir iştirakçıları tərəfindən geniş müzakirə olunmuş və səslənən təkliflərin rəsmi şəkildə nazirliyə və Dövlət Agentliyinə təqdim edilməsi, onların qiymətləndirilməsi və nəzərə alınması barədə qərar qəbul edilib.

Sözü gedən proqramla e-gov.az portalının müvafiq bölməsində (https://projects.e-gov.az/AllServices.aspx) tanış ola bilərsiniz.

Qeyd edək ki, layihəyə dair müzakirələr davam edir və layihə ilə bağlı rəy və təkliflərinizi bizə göndərə bilərsiniz.

## SMPDK-nın daha 7 xidməti “Elektron hökumət” portalı vasitəsilə istifadəyə verilib



Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin (SMPDK) daha 7 xidməti “Elektron hökumət” portalına inteqrasiya edilib.

Portal vasitəsilə vətəndaşların istifadəsinə təqdim edilən yeni xidmətlərə “Cərimələrin internet vasitəsilə ödənilməsi”, “İxtiraya, faydalı modelə və ya sənaye nümunəsinə patent verilməsi üçün müraciətin və sənədlərin qəbulu”, “İxtiranın, faydalı modelin, sənaye nümunəsinin, əmtəə nişanının və ya coğrafi göstəricinin reyestr məlumatlarından çıxarış verilməsi üçün müraciətin və sənədlərin qəbulu”, “Ölçmə vasitələrinin tipinin təsdiq edilməsi haqqında sertifikatın verilməsi üçün müraciətin və sənədlərin qəbulu”, “Lisenziya müqavilələrinin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu”, “Əmtəə nişanının və ya coğrafi göstəricinin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu” və “Əmtəə nişanına dair hüquqların verilməsi barədə müqavilələrin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu” elektron xidmətləri daxildir.

Cərimələrin internet vasitəsilə ödənilməsi xidməti Azərbaycan Respublikasında qanunvericiliyin tələblərini pozmuş təsərrüfat subyektlərinə qarşı Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməti tərəfindən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinə uyğun tətbiq edilmiş cərimələrin internet vasitəsilə ödənişini əhatə edir.

İxtiraya, faydalı modelə və ya sənaye nümunəsinə patent verilməsi üçün müraciətin və sənədlərin qəbulu xidməti Azərbaycan Respublikasında ixtira, faydalı model və sənaye nümunələrinin qeydiyyatı və patentin verilməsi üçün müraciətin və sənədlərin elektron qaydada qəbulunu nəzərdə tutur.

İxtiranın, faydalı modelin, sənaye nümunəsinin, əmtəə nişanının və ya coğrafi göstəricinin reyestr məlumatlarından çıxarış verilməsi üçün müraciətin və sənədlərin qəbulu xidməti vasitəsilə Azərbaycan Respublikasında ixtiranın, faydalı modelin, sənaye nümunəsinin, əmtəə nişanının və ya coğrafi göstəricinin reyestr məlumatlarından çıxarış verilməsi üçün müraciətin və sənədlərin elektron şəkildə qəbulu həyata keçirilir. Ölçmə vasitələrinin tipinin təsdiq edilməsi haqqında sertifikatın verilməsi üçün müraciətin və sənədlərin qəbulu xidmətinə ölçmə vasitələrinin tipinin təsdiq edilməsi haqqında sertifikatın verilməsi üçün müraciətin və sənədlərin elektron qaydada qəbulu daxildir.

Lisenziya müqavilələrinin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu xidməti Azərbaycan Respublikasında ixtira, faydalı modelvə sənaye nümunəsindən istifadə hüququnun verilməsinə dair lisenziya müqavilələrinin və əmtəə nişanı ilə bağlı lisenziya müqavilələrinin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin elektron şəkildə qəbulunu əhatə edir.

Əmtəə nişanının və ya coğrafi göstəricinin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu xidməti Azərbaycan Respublikasında əmtəə nişanının və ya coğrafi göstəricinin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin elektron şəkildə qəbulunu nəzərdə tutur.

Əmtəə nişanına dair hüquqların verilməsi barədə müqavilələrin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu xidməti Azərbaycan Respublikasında əmtəə nişanına dair hüquqların verilməsi barədə müqavilələrin dövlət reyestrində qeydiyyatı üçün müraciətin və sənədlərin elektron qaydada qəbulunu əhatə edir.

## "Elektron hökumət" portalının rəsmi "Facebook" səhifəsində istifadəçilərin sayı 62 000-I keçmişdir.

"Elektron hökumət" portalının rəsmi "Facebook" səhifəsi ("www.facebook.com/egov.az) fəaliyyətini genişləndirməkdə davam edir. Hazırda səhifə istifadəçilərin sayı artıq 62 mini ötüb.

Sözügedən "Facebook" səhifəsi vasitəsilə "Elektron hökumət"in formalaşması istiqamətində görülən və nəzərdə tutulan işlər, layihələr haqda, dövlət strukturlarının göstərdiyi elektron xidmətlər barəsində məlumatlar etmək və eyni zamanda ölkəmizdə informasiya cəmiyyəti quruculuğunda aparılan işləri təhlil və müzakirə etmək mümkündür. Qeyd edək ki, "Elektron Hökumət" Portalı üzərindən e-xidmətlərdən faydalanmaq istəyən istifadəçilər "Facebook" səhifəsinə daxil olaraq öz fikirlərini bildirir və paylaşırlar. Səhifəyə ünvanlanan suallar sosial tələb olaraq qəbul edilir, operativ şəkildə cavablandırılır, irəli sürülən təklif və rəylər mütəmadi olaraq nəzərə alınır. Səhifədə həmçinin Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən elan edilmiş "İKT ili" çərçivəsində "Respublikada "Elektron hökumət": mövcud vəziyyət, problemlər, perspektiv və gözləntilər"

mövzusunda analitik məqalə müsabiqəsinə təqdim edilmiş məqalələr və onlara verilən şərhlərlə də tanış ola bilərlər.

"Elektron hökumət"in vaxta qənaət, əlverişli, sürətli, keyfiyyətli, fasiləsiz, şəffaf, rahat, etibarlı olması kimi əsas üstünlükləri var.

İnformasiya və telekomunikasiya texnologiyalarının müasir mahiyyəti "Elektron Hökumət" Proqramı şəklində dövlət xidmətlərinin təqdimatıdır. Hal hazırda Azərbaycanda geniş vüsət götürən "Elektron Hökumət" Proqramı uğurla davam etdirilir.

## Dövlət Sosial Müdafiə Fondunun elektron xidmətlərinin istifadəçilərinin sayı xeyli artıb

Dövlət Sosial Müdafiə Fondunun elektron xidmətlərin istifadəçiləri tərəfindən 6 ay ərzində 200 minə yaxın əməliyyat həyata keçirilib.

Fonddan verilən məlumata əsasən, hesabat dövründə Azərbaycan Dövlət Sosial Müdafiə Fondunun (www.dsmf.gov.az, www.sspf.gov.az) təqdim etdiyi xidmətlər "Elektron hökumət" portalı (www.e-gov.az) vasitəsilə ən çox müraciət edilən elektron xidmətlər sırasındadır.

www.e-gov.az




Bu ilin ilk yarısında hesabatların və məlumatların sığortaedənlər tərəfindən elektron formada təqdim olunması xidmətindən yararlananların sayında da artım müşahidə olunub. Bununla bağlı 1 iyul 2013-cü il tarixə elektron ərizə ilə müraciət etməklə qeydiyyatdan keçmiş 27 010 sığortaedən unikal kod, parol və şifrə ilə təmin edilib.

Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin, torpaq pay mülkiyyətçilərinin və digər şığortaedənlərin məcburi dövlət sosial sığorta haqları üzrə Fondun orqanlarına ("Kütləvi ödənişlər üzrə mərkəzləşdirilmiş informasiya sistemi"nə (KÖMİS) qoşulmuş Dövlət Xəzinədarlıq Agentliyinin orqanları üzrə) ödənişlərinin real vaxt rejimində qəbulu da davam etdirilib. Artıq Dövlət Sosial Müdafiə Fondunun 76 yerli orqanı üzrə 590 970 sığortaedən haqqında məlumat KÖMİS sisteminə inteqrasiya olunub. 2013-ci ilin yanvar-iyun ayları ərzində 43 368 sığortaedən tərəfindən 131 583 əməliyyat həyata keçirilərək cəmi 12 055 665,65 manat məbləğində məcburi dövlət sosial sığorta vəsaitinin ödənişi həyata keçirilib.

Dövlət Sosial Müdafiə Fondu tərəfindən göstərilən elektron xidmətlər sahibkarlıq subyektlərinin fəaliyyətinin daha da asanlaşdırılması, əlavə vaxt itkisinin qarşısının alınması, insan amilinin rolunu son dərəcə azaldılması ilə nəticələnib. Sığorta-pensiya sistemində davam etdirilən islahatlara uyğun olaraq Fond tərəfindən əhaliyə təqdim olunan elektron xidmətlərin sayı 8-dən 25-ə çatdırılıb.

## Əczaçılıq fəaliyyəti elektronlaşdırıldı

Özəl tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq istəyənlər lisenziya almaq üçün "Elektron hökumət" portalı vasitəsilə elektron qaydada müraciət edə bilərlər.

Səhiyyə Nazirliyinin "Tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmaq üçün xüsusi razılığın (lisenziya) alınması üçün e-müraciət" xidməti portala inteqrasiya edilib.

Xidmətin göstərilməsi üçün ərizə forması "e-gov.az" internet ünvanında doldurulur, tələb olunan sənədlərin skan edilmiş surətləri elektron formada əlavə edilərək göndərilir. Qeyd edək ki, xidmətin yerinə yetirilməsinə nəzarəti Səhiyyə Nazirliyinin Ümumi şöbəsi və Səhiyyə Nazirliyinin Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi həyata keçirir.

## Azərbaycanda yaşa görə əmək pensiyalarının avtomatlaşdırılmış qaydada təyinatına başlanılıb

Azərbaycanda MDB məkanında ilk dəfə olaraq pensiyaların avtomatlaşdırılmış qaydada vahid mərkəzdən təyinatına başlanılıb. Bu məqsədlə keçirilən xüsusi təqdimat mərasimində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) sədri Səlim Müslümov bildirib ki, müasir standartlara uyğun avtomatlaşdırılmış pensiya təyinatı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 dekabr 2008-ci il tarixli sərəncamla təsdiq etdiyi "2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı"nda əksini tapmış mühüm vəzifələrdəndir. S.Müslümov vurğulayıb ki, pensiya təyinatının avtomatlaşdırılması kimi mühüm prosesə başlanılması sığorta-pensiya sistemində aparılan davamlı islahat tədbirlərinin məntiqi nəticəsidir. Bu sıraya pensiya qanunvericiliyinə edilən ardıcıl dəyişikliklərlə pensiya təyinatı alqoritminin tam sadələşdirilməsi, ödənilən sosial sığorta haqlarının fərdi uçotu, sığorta-pensiya sistemində Avropa standartlarına uyğun müasir avtomatlaşdırılmış infrastrukturun qurulması, DSMF-nin serverlərində unikal elektron məlumat bazalarının yaradılması kimi kompleks tədbirlər daxildir. Ötən dövr ərzində DSMF-nın www.dsmf.gov.az ünvanlı internet səhifəsində təkmil müştəri xidmətləri sistemi yaradılıb və bu xidmətlər elektron hökumət portalına inteqrasiya olunub. İstənilən vətəndaş bu xidmətlərə daxil olaraq öz fərdi hesabı barədə məlumat ala, eləcə də pensiya kalkulyatoru vasitəsilə öz pensiyasını hesablaya bilir. Bununla yanaşı pensiyaların avtomatlaşmış qaydada təyinatına başlanılıb. DSMF-də bu məqsədlə xüsusi "Çağrı Mərkəzi" (190-0) yaradılıb. Pensiya yaşına çatmış hər bir vətəndaş hər hansı sənəd toplamadan və vaxt itirmədən bu nömrəyə zəng vurub, şəxsiyyət vəsiqəsinin nömrəsi barədə məlumat verməklə real vaxt rejimində dərhal pensiya təyinatı hüququnu reallaşdıra bilər. Zəng vuran vətəndaşdan tələb olunan məlumatlar isə yalnız şəxsiyyət vəsiqəsinin nömrəsidir.

Bu məlumat dərhal sistemə daxil ediləcək, təsdiqləndiyi halda Fondun fərdi məlumatlar bazasına inteqrə edilərək avtomatlaşdırılımış qaydada əmək pensiyası təyinatı aparılacaq və vətəndaşa ona təyin olunan pensiyanın məbləği bildiriləcəkdir. Eyni zamanda, zəng edən şəxsə öz plastik pensiya kartını ala biləcəyi müvəkkil bankın filialının (şöbəsinin) ünvanı da çatdırılacaqdır. Fondun sədri bildirib ki, bu proses ümumilikdə bir neçə dəqiqəyə başa çatacaq: "Avtomatlaşdırılmış pensiya təyinatı ilkin olaraq yaşa görə əmək pensiyası növü üzrə aparılacaq. Əlilliyə və ailə başçısını itirməyə görə əmək pensiyalarının təyinatının avtomatlaşmış qaydada aparılması isə digər müvafiq dövlət qurumlarında qeyd olunan təyinatlarla bağlı zəruri informasiyaları özündə əks etdirən elektron xidmətlərin yaradılmasından sonra mümkün olacaq".S.Müslümov vurğulayıb ki, bu islahat tədbiri sistemdə şəffaflığın daha da artmasına, əlavə vaxt itkisinin qarşısının alınmasına, vətəndaşlarla DSMF orqanları arasında münasibətlərin sadələşdirilməsinə, insan amilinin rolunu son dərəcə azaldılmasına gətirib çıxaracaqdır: "Buna görə də vətəndaşlar öz fərdi hesablarında məlumatların tam əks olunmasında xüsusi maraqlı olmalıdırlar. O cümlədən ölkəmizdə fərdi uçot sisteminin tətbiqindən əvvəlki dövrə, yəni 2006-cı ilin 1 yanvarınadək iş stajlarının qeydiyyata alınmasında aktivlik göstərməlidirlər. Çünki avtomatlaşmış pensiya təyinatı yalnız sistemdə qeydiyyata düşmüş elektron göstəricilər əsasında aparılır və təbii ki, əgər müvafiq məlumatlar sistemdə vaxtında öz əksini tapmayıbsa hesablamalarda onların nəzərə alınması texniki baxımdan imkan xaricindədir".

Tədbirdə avtomatlaşmış pensiya təyinatının aparılması prosesi əyani şəkildə nümayiş etdirilib. Ayrı-ayrı rayonlardan 190-0 çağrı mərkəzinə zəng vuran vətəndaşlara avtomatlaşmış qaydada pensiya təyinatı aparılıb.

## Əmlak idarəçiliyi sahəsində elektron xidmətlər

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən əmlak idarəçiliyi, daşınmaz əmlak üzərində hüquqların qeydiyyatı sahələrində səmərəli nəticələrin əldə edilməsi, qanunçuluğun, vətəndaşların hüquq və azadlıqlarının səmərəli şəkildə təmin olunması, şəffaflığın daha da artırılması, korrupsiya hallarının qarşısının alınması məsələləri daim diqqət mərkəzindədir. Bu məqsədlə əmlak idarəçiliyinin müasir prinsiplər əsasında həyata keçirilməsi üçün informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması Komitənin prioritetlərindən birinə çevrilmiş və bu sahədə mühüm tədbirlər görülmüşdür.

Komitə tərəfindən fəaliyyət istiqamətləri üzrə 13 interaktiv və 3 informativ xarakterli elektron xidmət istifadəyə verilmişdir. Vətəndaşların və hüquqi şəxslərin elektron xidmətlərdən daha rahat, çevik və operativ şəkildə istifadə edə bilmələri üçün həmin elektron xidmətləri vahid virtual məkanda birləşdirən www.e-emdk.gov.az Elektron xidmətlər səhifəsi yaradılmışdır. Komitənin göstərdiyi elektron xidmətlər vasitəsi hüquqi və fiziki şəxslər tərəfindən beş mindən (5000-dən) çox elektron müraciət daxil olmuş və müvafiq qaydada baxılmışdır. Elektron Hökumət Portalına "Daşınmaz Əmlakın Dövlət Reyestrindən məlumatların verilməsi üçün müraciətin və sənədlərin qəbulu", "Daşınmaz əmlaka dair çıxarışların verilməsi üçün müraciətin və sənədlərin qəbulu" "Daşınmaz əmlakın qeydiyyatı ilə bağlı müraciətin icra vəziyyətinin öyrənilməsi", "Daşınmaz əmlakın qeydiyyatı ilə bağlı müraciət üzrə xidmət haqqının öyrənilməsi" və "Dövlət əmlakının icarəyə verilməsi müqavilələri üzrə icarə haqqı borcunun öyrənilməsi" elektron xidmətləri Elektron Hökumət Portalına inteqrasiya olumuşdur.

9 yeni elektron xidmətlərin Elektron Hökumət Portalına inteqrasiya edilməsi istiqamətində işlər davam etdirilir və yaxın vaxtlarda istifadəçilər Elektron Hökumət Portalında ƏMDK-nın yeni elektron xidmətlərindən istifadə edə biləcəklər.



www.e-gov.az

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmərlərin portala inteqrasiyası barədə

# MƏLUMAT

*01.08.2013*

| Sıra № | Dövlət qurumunun adı | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 23 | 22 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 6 | 7 | 18 | 6 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 4 | 4 | 4 | 4 | 4 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 10 | 3 |
| 6 | İqtisadi İnkisaf Nazirliyi | 7 | 7 | 7 | 12 | 7 |
| 7 | Vergilər Nazirliyi | 57 | 5 | 10 | 46 | 46 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 9 | 6 | 6 | 6 | 6 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 4 | 7 | 12 | 12 |
| 10 | Kənd Təsərrufatı Nazirliyi | 12 | 15 | 16 | 21 | 12 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 17 | 17 | 21 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 9 | 2 |
| 13 | Təhsil Nazirliyi | 8 | 0 | 3 | 27 | 4 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 10 | 11 | 14 | 14 |
| 15 | Rabitə və Informasiya Texnologiyaları Nazirliyi | 16 | 9 | 25 | 25 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 6 | 6 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 2 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qacqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xərtitəçıkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 6 | 2 | 5 | 16 | 4 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 0 | 0 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 0 | 0 | 2 | 0 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 4 | 5 | 21 | 21 |
| 31 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 4 | 4 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 10 | 12 | 13 | 10 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Cağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 0 | 0 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 2 | 2 |
| 41 | "Meliorasiya və su təsərrüfatı" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 42 | "Azərsu" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| 43 | "Azərenerji" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| | **CƏMİ:** | **417** | **184** | **238** | **437** | **327** |

## İyul 2013-cü il dövrü ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Milli Arxiv İdarəsi | 1 | 2 |
| 2 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 1 | 5 |
| 3 | Sənaye və Energetika Nazirliyi | - | - |
| 4 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | - | - |
| 5 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | - | - |
| 6 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | - | - |
| 7 | Dövlət Gömrük Komitəsi | 3 | 317 |
| 8 | Dövlət Sosial Müdafiə Fondu | 7 | 12177 |
| 9 | Dövlət Statistika Komitəsi | 4 | 42 |
| 10 | Vergilər Nazirliyi | 10 | 1564 |
| 11 | Ədliyyə Nazirliyi | 9 | 1407 |
| 12 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 4 | 235 |
| 13 | Fövqəladə Hallar Nazirliyi | 4 | 18 |
| 14 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 5 |
| 15 | Səhiyyə Nazirliyi | 10 | 445 |
| 16 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | - | - |
| 17 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 1 | 1 |
| 18 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 7 | 197 |
| 19 | Dövlət Dəniz Administrasiyasi | 12 | 15 |
| 20 | Təhsil Nazirliyi | 3 | 579 |
| 21 | Gənclər və İdman Nazirliyi | 1 | 1 |
| 22 | Əmlak Məsələləri Dövlət Komitəsi | 5 | 120 |
| 23 | İqtisadi İnkişaf Nazirliyi | - | - |
| 24 | Kənd Təsərrüfatı Nazirliyi | 1 | 2 |
| 25 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 6 | 739 |
| 26 | Meliorasiya və su təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | - | - |
| 27 | Daxili İşlər Nazirliyi | 3 | 1323 |
| 28 | Dövlət Sərhəd Xidməti | 1 | 1 |
| 29 | Müəllif Hüquqları Agentliyi | 1 | 2 |
| 30 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 3 | 181 |
| 31 | Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti | - | - |
| 32 | "AzərEnerji" ASC | - | - |
| 33 | "AzərSu" ASC | 1 | 351 |
| 34 | Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi | 7 | 28 |
| 35 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 24 | 54207 |
| | **CƏMİ** | **130** | **73964** |

www.e-gov.az

## 01.07.2013 – 31.07.2013-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsiləən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Telefon nömrəsi üzrə axtarış | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 52816 |
| 2 | Sığorta edənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3232 |
| 3 | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3231 |
| 4 | Pensiya kapitalı barədə məlumat | Dövlət Sosial Müdafiə Fondu | 3093 |
| 5 | Pensiyaçı tərəfindən məlumatların əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1345 |
| 6 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 1269 |
| 7 | Azərbaycan adları barədə məlumatın verilməsi | Ədliyyə Nazirliyi | 926 |
| 8 | Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar | Daxili İşlər Nazirliyi | 664 |
| 9 | PİN - ə görə fərdi məlumatların axtarışı | Daxili İşlər Nazirliyi | 656 |
| 10 | VÖEN - ə görə ödəyicinin axtarılması | Vergilər Nazirliyi | 513 |

## 01.08.2013-cü il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*Bütün qurumla üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 35 | 78 | 114 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

Əlavə məlumatı https://governmentsregistry.ehdis.az portalından əldə etmək mümkündür.

## 01.08.2013 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 11483 | 304 | 3210 | 14997 |

# Elektron xidmətlərdən istifadə coğrafiyası üzrə statistika




| City | Visits | Pages / Visit | Avg. Visit Duration | % New Visits | Bounce Rate |
|---|---|---|---|---|---|
| | 281,035<br>% of Total: 100.00% (281,035) | 3.43<br>Site Avg: 3.43 (0.00%) | 00:04:33<br>Site Avg: 00:04:33 (0.00%) | 60.78%<br>Site Avg: 60.57% (0.35%) | 41.72%<br>Site Avg: 41.72% (0.00%) |
| 1. Baku | 236,086 | 3.45 | 00:04:32 | 59.80% | 41.59% |
| 2. (not set) | 37,791 | 3.43 | 00:04:50 | 65.10% | 41.35% |
| 3. Xankəndi | 1,923 | 3.78 | 00:05:02 | 64.38% | 37.91% |
| 4. Moscow | 511 | 2.66 | 00:02:57 | 71.43% | 47.36% |
| 5. Bucharest | 314 | 2.34 | 00:04:44 | 46.82% | 53.18% |
| 6. London | 275 | 2.66 | 00:03:33 | 73.82% | 45.45% |
| 7. Istanbul | 194 | 2.75 | 00:03:14 | 86.08% | 50.00% |
| 8. Saint Petersburg | 112 | 2.85 | 00:02:08 | 70.54% | 52.68% |
| 9. Alameda | 111 | 2.93 | 00:03:06 | 86.49% | 37.84% |
| 10. Ankara | 104 | 2.99 | 00:03:48 | 67.31% | 45.19% |
| 11. Krasnodar | 95 | 1.41 | 00:02:38 | 12.63% | 84.21% |
| 12. Tbilisi | 88 | 2.94 | 00:03:35 | 85.23% | 46.59% |
| 13. Kiev | 77 | 4.34 | 00:04:10 | 87.01% | 40.26% |
| 14. Sydney | 53 | 1.77 | 00:03:16 | 20.75% | 67.92% |
| 15. Chicago | 52 | 2.48 | 00:02:57 | 44.23% | 46.15% |
| 16. Dubai | 51 | 2.08 | 00:02:12 | 60.78% | 43.14% |
| 17. Odesa | 45 | 1.98 | 00:01:14 | 53.33% | 57.78% |
| 18. Aberdeen | 44 | 3.64 | 00:05:07 | 77.27% | 34.09% |
| 19. Munich | 43 | 2.40 | 00:03:30 | 69.77% | 62.79% |
| 20. Copenhagen | 43 | 3.21 | 00:04:47 | 69.77% | 44.19% |